Azərbaycan Respublikasının
Auditorlar Palatası
Daxil № 152
"04.03.2021ci" il

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

# AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ


Az - 1073, A.Sultanova küç., 11,
E-mail: info@azmiu.edu.az
Veb sayt: www.azmiu.edu.az

Telefon: +99412 539-07-25
+99412 538-30-01
Faks: +99412 498-78-36


№ 31/119 "26" 02 2021 il

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Müasir bazar iqtisadiyyatı şəraitində istənilən ölkənin hərtərəfli inkişafı məhz onun iqtisadi inkişaf səviyyəsi və maliyyə imkanları ilə səciyyələnir. Buna isə yalnız iqtisadiyyatın bütün sahələrində şəffaflığın tam təmin olunması, resursların səmərəli istifadəsi, sahibkarlığın inkişafı üçün əlverişli şərait ilə yanaşı, iqtisadi subyektlər tərəfindən maliyyə və vergi qanunvericiliyinə ciddi riayət olunan mühitin yaradılması ilə nail olmaq mümkündür. Bu məsuliyyətli və cəmiyyətimiz üçün olduqca faydalı olan vəzifənin icrasında Sizin və rəhbəri olduğunuz qurumun rolu danılmazdır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün cənab prezident İlham Əliyev tərəfindən davam etdirilən şəffaf və demokratik dövlət quruculuğu, antikorrupsiya və islahatçılıq siyasətinin təzahürü kimi 25 il öncə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatası bu illər ərzində böyük inkişaf yolu keçmiş, ölkə rəhbərliyi tərəfindən müxtəlif illərdə qəbul edilmiş dövlət proqramları, strategiya və fəaliyyət planlarına uyğun olaraq Azərbaycan milli audit sistemi qurulmuş, böyük nailiyyətlər əldə olunmuşdur. Bütün bunlar Azərbaycan vətəndaşı olaraq bizi olduqca sevindirir.

**Hörmətli Vahid müəllim,**

Sizi və rəhbəri olduğunuz qurumun hər bir əməkdaşını Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamısının 25 illik yubileyi münasibətilə Universitetimizin kollektivi adından və öz adımdan ürəkdən təbrik edir, vətənimizin inkişafı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm.

**Hörmətlə,**

**Rektor** **prof. G.H.Məmmədova**